# Azərbaycan sülhə sadiqliyini söz və əməl birliyində nümayiş etdirir

***Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında Qarabağın təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinin müzakirəsinə həsr olunan görüş bir sıra məqamları ilə diqqət çəkib.***



Bu, Aİ Şurasının Prezidentinin həmin görüşlə bağlı bəyanatında, həmçinin üçtərəfli görüşün yekunları ilə bağlı jurnalistlərə müsahibəsində də öz ifadəsini tapıb. Şarl Mişel jurnalistlərə müsahibəsində deyib: "Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün olduqca mühümdür. Ona görə də biz bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləməklə məşğuluq və bu gecə böyük bir irəliləyişə nail olduq. Bu isə o deməkdir ki, biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik. Biz, həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq".

Aİ Şurasının Prezidenti daha sonra görüşdə düzgün istiqamətdə mühüm bir addım atıldığını, irəliləyişə nail olunduğunu bildirib: "Çünki biz ortaq məxrəcə gəlmək, bütün regionda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün ümid edirəm ki, mümkün qədər tez bir zamanda dayanıqlı razılaşma əldə etmək məqsədilə vacib elementlərin nədən ibarət olduğunu daha yaxşı başa düşürük".

Qeyd edək ki, Azərbaycan Prezidentinin Brüsselə səfəri, Aİ Şurasının Prezidenti Şarl Mişel, Ermənistan baş naziri Nikol Paşinyanla görüşləri və əldə olunmuş nəticələr isə dövlətimizin başçısının dünyada böyük nüfuzunun göstəricisi, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğurudur.

Görüşlərin nəticəsinə əsasən, deyə bilərik ki, ölkə rəhbərinin davamlı görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni format – Brüssel sülh gündəliyi yaranıb. İlk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də keçirilib, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları gerçəkləşib.

***(ardı 5-ci səhifədə)***

# Azərbaycan sülhə sadiqliyini söz və əməl birliyində nümayiş etdirir

*(əvvəli 1-ci səhifədə)*

Bu il aprelin 6-da 4 saat yarımdan artıq davam edən görüşün nəticəsi olaraq Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alınıb. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan XİN-lərinə müvafiq təlimatlar verilib.

Sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür.

Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlaması barədə razılıq əldə olunub.

Avropa İttifaqının minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcədə quruculuq işlərində Azərbaycana dəstək göstərməsi də razılaşmada öz əksini tapıb.

Nəqliyyat-kommunikasiya xətlərinin bərpası və qurulması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, İqtisadi Məşvərət Şurası mexanizminin yaradılması qərara alınıb.

Sənəddə “Dağlıq Qarabağ” ifadəsi və ya keçmişin qalığı olan ATƏT Minsk Qqrupu (MQ) həmsədrlik institutuna istinad da yoxdur. Bu, göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində bu reallığa əsaslanır. Həmçinin, münaqişə həll olunduğuna görə, ATƏT MQ lazımsız təsisata çevrilib, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb.

Avropa İttifaqı dünyada mövcud olan ən böyük siyasi və iqtisadi mərkəzlərdən biridir, qərəzsiz və bitərəfdir, Azərbaycan və Ermənistan tərəfindən etimad göstərilir. Bu nüfuzlu təşkilatın məqsədi, ilk növbədə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır.

Son illər Azərbaycanla Aİ arasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəlməsi, bu qurumla enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin rolunun daha da yüksəlməsi, Aİ Şurasının Prezidenti Şarl Mişellə Prezident İlham Əliyev arasında intensiv dialoq və təmaslar iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli istiqamətində əməli addımlar atılması üçün mühüm şərtdir.

Aİ Prezident İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Son iki ayda Azərbaycan Prezidenti ilə dünya liderləri, dövlət və hökumət başçıları arasında dialoq, telefon danışıqları dövlət başçımızın dünyada böyük nüfuzunun göstəricisidir.

Bütün bunlarla bərabər, onu da qeyd edək ki, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla üzərinə müəyyən öhdəliklər götürsə də, qarşıya qoyulan vəzifələri yerinə yetirməkdən müxtəlif bəhanələrlə yayınıb. Ermənistan ordusu Qarabağı tam tərk etməyib, hətta həmin yerlərdə mövqeləri möhkəmləndirmək üçün vaxtaşırı istehkamların tikintisini aparıb, yeri gəldikcə təxribatlar törədib. Zəngəzur dəhlizini Azərbaycana qarşı siyasi şantaj alətinə çevirməyə cəhdlər edib.



Bir daha xatırladaq ki, Prezident İlham Əliyev bu məsələyə konstruktiv yanaşıb, hər zaman əsas diqqəti Cənubi Qafqazda postmüharibə vəziyyətinə yönəldərək, Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqliyini bəyan edib. Dövlətimizin başçısı regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsinə nail olmağa xüsusi önəm verib. Bu, ölkə rəhbərinin nüfuzlu dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə söhbətlərində də öz aydın ifadəsini tapıb. Məsələn, Prezident İlham Əliyev bu il martın 31-də ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib: “Artıq Avropa İttifaqı tərəfindən elan edilmişdir ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaqdır. Ümid edirəm ki, bu görüş məhsuldar olacaq. Çünki artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib”.

Ölkə rəhbəri daha sonra Azərbaycan-Ermənistan arasında münaqişənin artıq öz həllini tapdığını, bunun Azərbaycan tərəfindən aradan qaldırıldığını və respublikamızla Ermənistan arasında münasibətləri nizamlamağın vaxtının çatdığını bildirib: “Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu, çox yaxşı xəbərdir və mən ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcək”.

Prezident İlham Əliyev çıxışında, eyni zamanda, Azərbaycanın üzərində dayandığı beş prinsipin beynəlxalq hüququn normalarını, səmərəli beynəlxalq davranışı əks etdirdiyini xatırladaraq, onların istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləri olduğunu vurğulayıb. Dövlətimizin başçısı daha sonra fikirlərinə qarşılıqlı şəkildə ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, həmçinin sərhədlərin delimitasiyası ilə Qafqaza sülh gələcəyini əlavə edib: “Bu, Azərbaycanın istəyidir. Azərbaycan Cənubi Qafqazın üç ölkəsi arasında fəal əməkdaşlıq üçün potensialın mövcudluğunu görür. Bu, eyni zamanda, Cənubi Qafqaz ölkələrilə bərabər, daha geniş region üçün mühüm önəm daşıyır. Lakin bütün bu məsələləri ehtiyatla, həssaslıqla nəzərdən keçirmək və vaxtında həll etmək zəruridir”.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bir müddət bundan əvvəl yaydığı məlumatda da ölkəmizlə Ermənistan arasında münasibətlərin yaradılması üçün təklif edilən baza prinsipləri açıqlanaraq, Azərbaycanın münaqişə sonrası mərhələdə sülh quruculuğu səyləri diqqətə çatdırılıb. Məlumatda, eyni zamanda, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində respublikamız tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində işğalçı tərəfindən buna qarşılığın verilmədiyi də göstərilib.

Yeri gəlmişkən, Azərbaycanın iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təkliflərində beş prinsipdən biri tərəflərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanımasıdır. İkincisi, bu dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Üçüncüsü, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinilməsidir. Dördüncüsü, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, nəhayət, beşincisi isə nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın yaradılmasıdır. Təbii ki, məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönələn danışıqlar aparılaraq ikitərəfli sülh sazişi imzalana bilər.

Burada onu da xatırladaq ki, ilk olaraq Azərbaycan tərəfi hələ bir il bundan əvvəl Ermənistanla sülh sazişinin imzalanması təklifini yuxarıda qeyd olunduğu kimi, ən yüksək səviyyədə irəli sürüb və sazişin əsaslanmalı olduğu konkret prinsipləri səsləndirib. Ermənistan tərəfi isə bu istiqamətdə ciddi, konkret addımlar atmaqdan, əsassız olaraq, ATƏT-in Minsk Qrupunu bu məsələyə qoşmaqla yayınıb.

**_Vaqif BAYRAMOV,_**
**_“Xalq qəzeti”_**

Xalq qəzeti .- 2022.- 8 aprel.- S.1;5.